FİKRƏT ƏLİZADƏ*

# TARİX BOYU TÜRK DİLLƏRİNİN DÜNYA DİLLƏRİNƏ TƏSİRİ


## XÜLASƏ

Türk dili hazırda işlənən ən qədim dünya dillərindən biridir. Hələ 5-6 min il əvvəl akkad mətnlərində türk sözlərinə rast gəlinir. Tanınmış türk dilçisi Osman Nedim Tunan, eləcə də onun müəllimi alman assur-şümeroloqu Bern Landsberq türkizmlərin Mesopotamiya-Şumer mətnlərində də mövcud olduğunu sübut etmişlər.

Müasir türkologiyada 2300-2400 il əvvəl Çinin cənubunda türk dilində danışanların olduğunu, daha sonralar isə həmin dil daşıyıcılarının Altay köklərindən ayrılması fikrini sübut etməyə çalışmışlar.

Akkad dilində rast gəlinən türk mənşəli sözlər (məs.: eqru=əyri; tuppuşu= toppuş; qabaqu= qabaq, ön), cağdaş azərtürk dilində işlənir.

Türkizmlər demək olar ki, bütün qitələrdə istifadə olunur. Maya, Siu, Keçua kimi tayfaların türk mənşəli olması barədə fikirlər var.Lüğət bunu təsdiq edir: saqla = sakal; pak=bak; kok=gök (Keçua); ik = iki; ket = ket; ari=arık (Siu); oş=üç; ik=iki (Maya)

Qədim etrusk dili də rus dili kimi türk sözləri ilə zəngindir və hətta bir çox alimlər onu türk dillərindən biri hesab edirlər.

Əgər rus dilindən danışırıqsa, bu dil türk sözlərinin ən etibarlı müdafiəçisi hesab olunur. Balıqçılıq, maldarlıq, hərb, məişət və s. ilə bağlı yüzlərlə söz var (loşad` = loş at; tovariş = davar eş; karakul` = qara gül; karandaş = qara daş).

Əvvəllər bəzi rus soyadları türkcə -ın sonluğu ilə bitirdi: Karamzin = Qara-mirzə/nin və bu həmin şəxsin hansı nəslə mənsub olduğunu göstərirdi.

İngilis dilində də türk sözləri var: body = bədən, brain= beyin.


**Açar sözlər:** *dillərin qohumluğu, türk dilləri, qədim dillər, dünya dilləri.*

Türk dilləri əhatəsində olan xalqlar əsrlər boyu bu dillərin sözlərini əxz etmişlər. Son dövrlərin tədqiqatlarına əsasən, qədim dünya tarixində öz rolunu oynamış qədim yunan, latın dillərində xeyli türkizm aşkar olunmuşdur.Bunlar sübut edir ki, türklər 5000-6000 il öncə tarix səhnəsində mövcud imiş ki, onların sözləri də qədim dillərə daxil olmuşdur. Təbii ki, belə halda Altay nəzəriyyəsi - türklərin Çinlə sərhəddə meydana çıxması, digər xalqlardan daha cavan olması fikri iflasa uğramış olur. Hazırda Yer üzündə 40-a qədər türk xalqı var. Onların ümumi sayı təxminən 300 milyondur. Türklər tarixdə öz sözlərini demiş, fərqli dövrlərdə və Avrasiya qitəsinin müxtəlif yerlərində Hun imperiyası, Türk Xaqanlığı, Qızıl Orda, Teymur imperiyası kimi bir-birinə bənzəri olmayan 17 imperiya, dövlət yaratmışlar.

Ümumiyyətlə, türklər hazırda da böyük ərazilərə sahib olan yeganə, zəngin tarixi olan xalqlardır. Buna Türkiyə Cümhuriyyəti, Rusiya tərkibində Yakutiya (Saxa) Respublikası (Əgər Saxa müstəqil dövlət olsa idi, dünyada ərazisinə görə (3103.2 min km$^2$) yeddinci dövlət olardı. Oraya 5 Fransa və ya azqala Argentina yerləşər), Qazaxıstanı (bura da 5 Fransa ərazisi qədərdir) nümunə göstərmək olar.

Qədim türklərə gəlincə, beynəlxalq tədqiqatçıların fikrinə görə, *25 000 il əvvəl* Altay əhalisi dünyanın müxtəlif yerlərinə yayılmaqla bərabər, bir qismi heç bir əhalisi olmayan

* Bakı Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent, *0504111351@mail.ru*

Amerika qitəsinə köçmüş və bu səbəbdən başqa xalqlarla qarışmadığından əvvəlki genotiplərini daha təmiz saxlaya bilmişlər [Bolnick: 2006, s.15]. Amerika hindularının Y xromosomunda Q haploqrupu (yalnız ata xətti ilə qədim nəsillərə - əcdadlara bağlı xromosom toplusu) faizi daha yüksəkdir [Singh: 2008, s.35].

Daha qədim dövrlərdə yazı sistemi olmadığına görə, qədim dillər haqqında təsəvvürümüz zəifdir. Lakin maraqlıdır ki, bəzi dilçilərin fikrincə, türk dillərində və lakota siu dilində bir qisim oxşar sözlər var: *vakan* - xaqan, xan; *tanı* - tanımaq; *yudek* –udlaq, boğaz; *yuta* - yemək (yutmak, udmaq); *içu* - içmək; *kuva* - qovmaq; *yasu* – yasaqlamaq, məhkum etmək; *kan* – qan,damar; *miye* - mən; *ma* - mənim; *sue* - süd; *baha* - baba, qoca adam; *ik* - iki; *bebel*a - bəbə; uşaq; *hang* - hə və s.

Peruda ikinci dövlət dili olan keçua dili də türk dilləri kimi iltisaqidir və tərkibində türkizmlər var [Namazov: 2002, s.31]: *kok* - göy; *tata* - ata, dədə; *as* - az; *arı* - arıq; qo – qovmaq; *saqla* - saqqal; *qarvin* - qarın [Polat: 1986, s.101].

Sözsüz ki, müasir hindu dillərini türk dilləri ilə bağlamaq istəməsək də, söz oxşarlıqlarına təsadüf kimi yanaşılsa belə, dil qohumluğuna şübhə etmək olsa da, qan qohumluğu şəksizdir. Genetik tədqiqatlar uzaq keçmişdə hinduların və Altay xalqlarının ümumi əcdadının olmasını inkaredilməz dəlillərlə sübut edib. Beləliklə, genetik araşdırmalar filoloji tədqiqatlarla müqayisədə daha tutarlı və inandırıcı faktları üzə çıxarır.

Q haploqrupu qədim hunlar arasında da geniş yayılmışdı. Onun müasir Macarıstan əhalisinin genotipində mövcud olması diqqəti cəlb edir. Bu, müasir macarların əcdadlarının arasında hun və qıpçaqların olması ilə bağlıdır.

Maraqlıdır ki, Macarıstan Avropa dillərinin əksəriyyətində *Hunqariya* adlanır. Qeyd etmək lazımdır ki, macar dilində 800-ə qədər vurğusu əvvələ düşən türkizm vardır: ökür – *öküz; Arpa – arpa; alma - alma. kEçke-keçi, tEve - dəvə; ki – kim; hOva – hara; sArqı – sarı; gök – göy (rəng), çok – çox; van – var…*

Adı çəkilən haploqrupun Avropa yəhudilərində – aşkenazlarda aşkar edilməsi də maraqlı faktdır və bu onların etnogenezində xəzərlərin iştirak etməsi ilə izah oluna bilər.

Yenisey dil ailəsinə aid ket xalqı genetik cəhətdən hindulara çox yaxındır. Ketlərdə ***Q*** haploqrupunun nisbəti 95%-ə çatır və hindularda olduğu qədər yüksəkdir. Ural dil qrupuna aid selkuplarda da *Q* haploqrupunun daşıyıcıları əhalinin 70%-ni təşkil edir. Türkdilli xalqlar arasında bu haploqrup daha çox qaraqalpaqlarda (73%), İran türkmənləri (43%) və Əfqanıstan türkmənləri (34%) arasında yayılmışdır.

Qədim Yenisey xalqlarının əksəriyyəti Sibir-Altay türkləri ilə qarışaraq, onların içində ərimiş, yakut, tuva, xakas, Altay xalqlarının etnogenezində iştirak etmişlər. Yenisey dillərinin çoxu artıq unudulub. Yalnız azsaylı ket xalqının dili hələ ki qalmaqdadır. Təxminən 10 il əvvəl 10-15 nəfər yaşlı nəsil bu dildə danışırdı. (5, Moskva, 2016)

Sibir-Altay bölgəsində yaşayan bütün yerli xalqlar - türkdillilər və qeyri-türkdillilər eyni kökə bağlıdırlar. Dil diferensiasiyası nəticəsində müasir dillərin və dil ailələrinin yaranması daha sonrakı dövrlərə təsadüf edir. Amma qan və gen birliyi dil birliyindən daha özəldir.

Antropoloji cəhətdən Şimali Amerika hinduları bəzi monqoloid cizgiləri daşısalar da, iri gözlərə, burunlara və avropoidlər üçün səciyyəvi olan bir sıra fiziki əlamətlərə malikdirlər. Bu səbəbdən alimlərin əksəriyyəti hinduları monqoloid kimi deyil, xüsusi – amerikanoid tipinə aid edirlər.

Hindularda avropoid və monqoloid cizgilərinin kombinasiyası onların yalnız irqi cəhətdən qarışıq olmasından irəli gəlmir, xüsusi arxaik irqə aid olmaları ilə bağlıdır. Hinduların əsas hissəsinin Asiyadan Amerikaya köçdüyü dövrdə klassik monqoloid irqi hələ tam formalaşmamışdı. Ona görə də amerikanoidlər daha qədim antropoloji tipin daşıyıcılarıdır. Bu irqdən bir qədər fərqli, lakin ona oxşar irqin əlamətləri müasir Tibet əhalisində də müşahidə olunur.

Hindular Sibirdən Amerikaya köçdükdən sonra bir neçə min il başqa xalqlardan təcrid olunmuş halda yaşayıblar. Hindulardan əvvəl Amerikada əhali olmadığına görə onlar başqa irqlərlə qarışa bilməzdilər.

Çox sonralar Amerika qitəsində yaranmış sivil Maya, Astek dövründə də bu dillərdə türkizmlərə rast gəlinir [Namazov: 2002, s.35].

Daha sonralar türklərin tarixi zəfərləri nəticəsində həm Asiya, həm də Avropa dillərinə külli miqdarda sözlər keçmişdir. Bunlar arasında ən zəngin olan ərəb dili də vardır. Bu dilin hər bir sahə qatında türkizmlər öz əksini tapır [Zahid: 1977, s.15]: *inkisarı* - yeniçəri; *bəy*k – bayraq // dilmizdə *bayraq+dar* – bayraq aparan əsgər, ya zabit; ümumilikdə isə on minlik qoşun başçısı; *yuzbaci* - yüzbaşı; *bikbaşi* - minbaşı; *buluk* - bölük; *tətək* - tətik; *ağalik* - ağalıq; *vəyrku*-vergi; *əşkin*-qaçqın; *əlçi*- elçi; *kuftan*- qaftan; *şəntə* - çanta; *kaiş* - qayış; *bumbağ* – boyunbağı;*əranik* -örnək; *kazma* - qazma; *bəltə* - balta / *bulət* /cəmdə*/; bəsdirmət* – basdırmaq; *bəsturma* - basdırma;*yağmur* - yağmur.

Fars dilində daha çox – yüzlərlə türk sözü vardır və bu onunla bağlıdır ki, farslar və Azərbaycan türkləri əsrlər boyu iç-içə yaşamışlar. Nəticədə, qarşılıqlı olaraq bir-birinə sözlər ötürmüşlər. Türk dili əsasən XVl əsr Səfəvilər dövründə Şah İsmayılın göstərişi ilə dövlət dili olaraq, fars dilinə öz qüvvətli təsirini göstərmişdir [Zərinəzadə: 1962, s.26].

Bir sıra sözlər olduğu kimi tələffüz olunur: *boşqab; çolaq; döşək; qayçı; ocaq; tuğ (arx.) – bayraq.*

Fərqli deyilişli sözlər daha çoxdur: *olus* – ulus; *oğor* – uğur; *uymaq* – oymaq = ulusun bir hissəsi*; betek /petik* (arx), *bitik* – yazı, məktub = törəməsi: *pete* - sənəd : *pitik* və *pətə* bəzi Azərbaycan dialektlərində *yazı, dua,* və *vəsiqə* mənasında işlənir. Maraqlıdır ki, *bitik* sözünün samitləri metatezaya uğrayaraq, ərəb dilində yazıya bağlı məna ilə *kitab* şəklini almışdır.

*Təngə* - qızıl-gümüş pul, pul, kapital mənasında qədim türk sözü *tınqa/tunqa/ tamqa*. Həmin söz Səlyan dialektində *pul* mənası daşıyır.

Bu söz XIY əsrdə rus dilinə *denqi* şəklində keçərək hazırkı zamana qədər *pul* mənasında işlənir.

Rus dili türk sözlərinin ən etibarlı qoruqçusu hesab olunur. Belə ki Rusiya – keçmişdə isə Sovet İttifaqının əsas ərazisində yaşayanlar sırasında türk xalqları əksəriyyət təşkil edirdi. Bu səbəbdən rus dili, bir tərəfdən, Avropa dillərindən (ingilis, alman, fransız, holland və s.), digər tərəfdən isə, qismən Asiya dillərindən (hind, ərəb, fars) sözlər qəbul etmişdir. Bu dil ərazisi türkdilli xalqlar mühitində olduğuna görə, əsasən atçılıq, balıqçılıq, heyvandarlıq, hərb, məişət sahələrində 3000-ə qədər türkizm mənimsəmiş yeganə dildir: *tovariş* (davar eş), *karandaş* (qara daş), *yepança (yapıncı)*, *karakul* (qara gül), *yeralaş* (yer alaşa), *loşad* (loş at), *babay* (baba), *kandalı* (qandal), *karaquş* (qaraquş), *vyuq* (yük). *priyut* (yurd), *uj* (güc), *smık* (sıx), *sapoq* (sap(la)*boğ* = yəni sapla bağlanan çəkmə, ayaqqabı).

Rus dilində türk dillərindən götürülmüş bir sıra sözlər kalka vasitəsilə o dildəki mənanı öz dillərinə daxil etmişdir. Məs.: *yüzbaşı* – sotnik, *desyatinik* – onbaşı.

Ukrayna dilinə gəlincə, bu dilə türkizm adı ilə əsl türk sözləri və həmçinin onun vasitəsilə başqa dillərin sözləri alınma kimi daxil olub. Qeyd etmək lazımdır ki, bir zamanlar Ukrayna ərazisində yaşayan xalq *torki* (türklər) adlanıb: *bariş* - barış, sülh; *tyutyun* – tütün; *baq* – bağ; *bay* - bəy (Orta Asiyada *bay* - varlı); *bayrak* – bayraq; *maydan* (ərəb sözü meydan*); bazar* (farsizm); bayram.

Beynəlxalq dil hesab olunan ingilis dilində 400-ə qədər türkizm vardır. Həmin sözlər müxtəlif sahələrlə bağlıdır: *taiga* – tayqa; *kiosk* – köşk; *kumiss* - qımız (at südü); *pasha* – paşa; *khan* – xan; *janissary* - yeniçəri;*şaber* (ərəb.- süvari əsgər), *hurrah* - ur/r/a; *lackey* - yalaka (Bu söz metatezaya uğramışdır); *horde* - ordu; *effendi* (yunanca *efendos* - ağa – əfəndi); *bashi*-basouk – başıpozuq; *book* (qədim türkcə *bitik* - yazı, məktub, kitab).

Göründüyü kimi, türk sözləri bir sıra dilləri qidalandırmış, öz kökünün qədim dövrlərə bağlı olduğunu sözləri ilə sübut etmişdir.

Türk dillərinin izi bütün Avroasiya, Afrika,Amerika qitələrini əhatə edir. Türk dilləri bütün dünyada danışılan ən qədim dillərdən biridir. Hələ 5-6 min il əvvəl akkad mətnlərində türk sözlərinə rast gəlinir. Tanınmış türk dilçisi Osman Nedim Tunan, eləcə də onun müəllimi alman assur-şümeroloqu Bern Landsberq türkizmlərin Mesopotamiya-Şumer mətnlərində də mövcud olduğunu sübut etmişlər.

Maraqlıdır ki, Akkad dilində türkmənşəli sözlər (məsələn: *eqru=əyri; tuppuşu= toppuş; qabaqu= qabaq,ön* müasir Azərbaycan dilində də işlənir.

Türkizmlərdən, demək olar ki, bütün qitələrdə istifadə olunur. Mayya, Siu, Keçua kimi tayfaların türkmənşəli olması ilə bağlı fikirlər var. Lüğət müəyyən dərəcədə bunu təsdiq edir: *saqla = sakal; pak=bak; kok=gok (Keçua); ik = iki; ket = ket; ari=arık* (Siu); *oş=üç; ik=iki* (Mayya)

Qədim etrusk dilini də bir çox alimlər türk dillərindən biri hesab edirlər.

Əvvəllər bəzi rus soyadları türkcə *-ın* sonluğu ilə bitirdi: *Karamzin = Kara-mirzə/nin* və bu həmin şəxsin hansı nəslə mənsub olduğunu göstərirdi.

İngilis dilində eyni səslənişli bir qisim türk sözləri var: *body* = bədən, *brain* = beyin.

Dünya dilçilərinin müşahidə-tədqiqatlarına istinadən belə bir fakt təsdiqlənir ki, türk dilləri çox qədimdir. Onun sədası tarixin ənginliklərinə gedən şumer, akkad, elam dillərindən gəlir.

Türk dilləri zaman keçdikcə, azqala, beynəlxalq ünsiyyət vasitəsi kimi, dünya dillərinə az və ya çox miqdarda söz ötürə bilmişdir. Bəzi dillər isə öz kök dilinə görə dərindən araşdırılarsa, onun türkmənşəli olub-olmamasını ayırd etmək olar. Eyni zamanda dillərə genetik – qan qohumluğu baxımından yanaşma yolu ilə bir sıra qeyri-müəyyənliklərə son qoymaq olar.

## ƏDƏBİYYAT

**1**.Namazov Q. Amerikada yaşayan qırmızıdərililər türksoyludur. "Altay dünyası", №2, Bakı, 2002, s.30-35

**2**.Zahidi A.İ.Müasir ərəb dilində türkmənşəli sözlər. Bakı, 1977, 310 s.

**3**.Zərinəzadə H. Fars dilində Azərbaycan sözləri. Bakı, 1962, 405 s.

**4**.Bolnick Deborah A. et al 2006, Asymmetric Male and Female Genetic Histories among Native Americans from Eastern North America. Mol. Biol. Evol. 23(11): 2161–2174. 2006

**5**.Kaya Polat. Search For a Probable Linguistic and Cultural Kinship Between the Turkish People of Asia and the Native Peoples of Americas". Bülleten, Cilt: L. Türk Tarih Kurumu Basımevi, Ankara. Aralık ,1986, 198 s.

**6**.Malhi Ripan Singh et al 2008, Distribution of Y Chromosomes Among Native North Americans: A Study of Athapaskan Population History. AM J Phys Anthropol. December ; 137(4): 2008 . s. 412–424.

**7**.Скляхо, Р.А., Жабагин, М.К., Юсупов Ю.М. и др. Генофонд туркмен Каракалпакстана в констексте популяций Центральной Азии (Полиморфизм Y-хромосомы). Вестник Московского университета. Серия XXIII. Антропология. No 3/2016. s. 86–96

**8**. Родиной американских индейцев следует считать Алтай.

http://www.gumilev-center.ru/rodinojj-amerikanskikh-indejjcev-sleduet-schitat-altajj/ (13.04.2021).

**Fikrat ALIZADEH**

## HISTORICAL INFLUENCE OF THE TURKIC LANGUAGES ON WORLD LANGUAGES

## SUMMARY

Turkic languages are one of the most ancient languages spoken all over the world. As early as 5-6 thousand years ago, Turkic words are found in Akkadian texts. The well-known Turkish linguist Osman Nedim Tunan, as well as his mentor the German Assur-Sumerologist Bern Landsberg, proved that Turkisms also exist in Mesopotamian-Sumerian texts.

In modern Turkology, attempts are being made to prove that 2300-2400 years ago, native speakers of the Turkic language arose in southern China. And after that they separated from the Altai roots. While in the Akkadian language there are words of Turkic origin (for example: eqru=əyri; tuppuşu= toppuş; qabaqu= qabaq,ön, which are used in the modern Azeri Turkic language.

Turkisms are used in almost all continents. There are suggestions that tribes such as Maya, Sioux, Quechua are of Turkic origin. Vocabulary confirms this: saqla = sakal; pak=bak; kok=gok (Quechua); ik = iki; ket = ket; ari=arık (Sioux); oş=üç; ik=iki (Maya).

The ancient Etruscan language, like the Russian language, is rich in Turkic words, and even many scholars consider it one of the Turkic languages.

If we talk about Russian, then it is considered that this is the most reliable defender of Turkic words. There are hundreds of words related to fishing, cattle breeding, army, life, etc. loshad (horse) = losh at; tovarish (friend) = davar eş; karakul = kara gül; karandash (pencil) = kara daş).

Previously, some Russian surnames ended with Turkic genitive endings -ın, - in: Karamzin = Kara-mirze / nin, and this indicated which generation this person belongs to.

There are also some Turkic words in English, for example, body= bədən, brain= beyin.

**Key words:** *kinship of languages, Turkic languages, ancient languages, world languages*.

**Фикрет АЛИЗАДЕ**

## ИСТОРИЧЕСКОЕ ВЛИЯНИЕ ТЮРКСКИХ ЯЗЫКОВ НА МИРОВЫЕ ЯЗЫКИ

### РЕЗЮМЕ

Тюркские языки одни из древнейших языков, распространенных по всему миру. Еще 5-6 тыс. лет назад тюркские слова встречаются в аккадских текстах. Известный турецкий языковед Осман Недим Тунан, а также его наставник немецкий ассур-шумеролог Берн Ландсберг, доказали, что тюркизмы существуют и в месопотамских - шумерских текстах.

В современной тюркологии делаются попытки доказать, что 2300-2400 лет назад на юге Китая возникли носители тюркского языка. И после этого они отделились от алтайских корней. В то время как в аккадском языке встречаются слова тюркского происхождения (например: eqru=əyri; tuppuşu=toppuş; qabaqu=qabaq,ön, которые употребляются в современном азертюркском языке.

Тюркизмами пользуется почти во всех континентах. Есть предположения, что племена, типа майя, сиу, кечуа тюркского происхождения. Подтверждение тому лексика: saqla = sakal; pak=bak; kok=gök (кечуа); ik=iki; ket = ket; ari=arık (сиу); oş=üç; ik=iki (майя)

Древний этрусский язык, как и русский язык, богат тюркскими словами, и даже многие ученые считают его одним из тюркских языков.

Если говорить о русском, то считается, что это самый надежный защитник тюркских слов. Существуют сотни слов, связанных с рыболовством, скотоводством, армией, бытом и т. п. (лошадь = лош ат; товарищ=давар эш; каракуль=кара гюль; карандаш=кара даш;).

Раньше некоторые русские фамилии заканчивались тюркскими окончаниями родительного падежа -ın,- in : Карамзин = Кара-мирзе/нин и этим указывалось к какому поколению принадлежит этот человек.

В английском также есть некоторые тюркские слова, например, body= bədən, brain= beyin.

**Ключевые слова:** *родство языков,тюркские языки, древние языки, мировые языки.*